AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**HƏSRƏT XANBABA oğlu ŞIXALİYEV**

# KÜR-ARAZ QOVŞAĞI ƏRAZİSİNDƏ İLK ORTA ƏSRLƏR ARXEOLOJİ ABİDƏLƏRİ

**5505.02 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Aləm Bayram oğlu Nuriyev**
*tarix üzrə elmlər doktoru*

**Arif Məhəmməd oğlu Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Qüdrət Seyfulla oğlu İsmayılzadə**
*tarix üzrə elmlər doktoru, professor*

**Abuzər İbrahim oğlu Ələkbərov**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin **"Ümumi tarix"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – "Arxeologiya") dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "___" ____________ 2017-ci il tarixli iclasında saat "___"də keçiriləcəkdir.

**Ünvan: Bakı şəhəri, AZ 1043 H.Cavid prospekti 115**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" _____________ 2017-ci ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının elmi katibi** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan tarixinin və arxeologiyasının ilk orta əsrlər mərhələsi Azərbaycan (Qafqaz) Albaniyasının mühüm bir dövrünü əhatə edir və öz əhəmiyyəti ilə seçilir.

Kür Araz qovşağı ərazisində ilk orta əsrlər arxeoloji abidələrin sistemli şəkildə arxeoloji tədqiqinə XX əsrin 40-50-ci illərindən başlanılmışdır. Yarım əsrdən artıq bir müddət ərzində bölgənin ilk orta əsrlər dövrünə aid xeyli sayda yaşayış yerləri, onlara müvafiq qəbir abidələri qeydə alınmışdır. Bu abidələrdən bəzilərində arxeoloji qazıntı, müəyyən qismində isə arxeoloji kəşfiyyat işləri aparılmışdır. Tikinti və təsərrüfat əhəmiyyətli işlər, eləcə də təbiət hadisələri ilə əlaqədar da xeyli maddi-mədəniyyət qalıqları da üzə çıxarılmışdır. Onların bir çoxu AMEA Arxeoloji və Etnoqrafiya İnstitutunun fondunda və yerli Tarix–diyarşünaslıq muzeylərində, şəxsi kolleksiyalarda qorunub saxlanılmış və təqdim edilən dissertasiya işinin ərsəyə gəlməsində mühüm əhəmiyyət kəsb etmişdir. Dissertasiya işində Kür-Araz qovşağı ərazisində ilk orta əsrlər arxeoloji abidələrinin ayrıca tədqiqat obyekti kimi işlənilməsinə ilk dəfə müraciət edilmişdir. Tədqiq olunan dissertasiya işinin aktuallığını şərtləndirən əsas əlamət də budur. Dissertasiya işində Kür-Araz qovşağı ərazisində yerləşən kənd və şəhər tipli yaşayış yerləri ilk dəfə sistemli şəkildə arxeoloji tədqiqata cəlb edilərək öyrənilmiş, bölgənin ilk orta əsrlərə aid yaşayış yerləri digər həmdövr abidələrlə müqayisə edilərək daha dərindən araşdırılmış və ərazinin Azərbaycan Albaniyasının tarixindəki yeri müəyyənləşdirilmişdir.

Kür-Araz qovşağı ərazisinin erkən orta əsrlərə aid bütpərəst, xristian və erkən müsəlman qəbirlərinin öyrənilməsi qeyd edilən dövrdə xronoloji baxımdan ardıcıl olaraq əhalinin dini dünyagörüşünü öyrənməyə imkan yaratmışdır. Bu fikir memorial abidələr üçün də xarakterikdir.

Bölgənin ilk orta əsr abidələrində aparılmış arxeoloji qazıntı və çöl-tədqiqat işləri zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinin təsnifatı ilk orta əsrlərdə Kür-Araz qovşağı əhalisinin

məşğuliyyətində əsas yeri tutan əkinçilik, maldarlıq və sənətkarlığın inkişaf xəttini öyrənmək baxımından aktuallıq kəsb edir.

İqtisadi və mədəni əlaqələrin öyrənilməsi ilk orta əsrlərdə iqtisadi münasibətlərdə Kür-Araz qovşağı ərazisinin yerinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bölgədə yerləşən körpülərin, xanəgahların, karvansarayların, ilk dəfə olaraq sistemli şəkildə arxeoloji baxımdan tədqiqi onların ilk orta əsrlərdə Kür-Araz qovşağı ərazisinin ümumi inkişafındakı yerinin müəyyən edilməsi baxımından böyük önəm daşıyır.

Dissertasiya işində Kür-Araz qovşağı ərazisinin Azərbaycanın ilk orta əsr arxeoloji abidələrinin tədqiqindəki yeri müəyyənləşdirilmişdir.

Təqdim olunan mövzunun ayrıca dissertasiya mövzusu kimi işlənilməsi bölgənin Azərbaycanın ilk orta əsrlər dövrü tarixinin, arxeologiyasının, incəsənətinin inkişafındakı yerinin dəqiqləşdirilməsi baxımından da diqqəti cəlb edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsi ilk orta əsrləri əhatə etməklə Azərbaycan (Qafqaz) Albaniyası tarixinin mühüm mərhələsini əks etdirir. Ərazi ilk orta əsrlərdə Azərbaycan (Qafqaz) Albaniyasının tərkib hissəsi kimi siyasi-ictimai, sosial-iqtisadi və mədəni əlaqələrdə mühüm rol oynamışdır. Məhz xronoloji çərçivənin qeyd edilən dövrü əhatə etməsi tədqiqatın mənbəşünaslıq bazası və tarixi – arxeoloji abidələri, bölgənin siyasi-ictimai və sosial-iqtisadi tarixi ilə bilavasitə əlaqədardır.

Tədqiqatın xronoloji çərçivəsinin III–IV əsrlərdən başlanması bu dövrdə Azərbaycanda yeni ictimai münasibətlərin – feodalizmin təşəkkülü, VIII – IX əsrlərlə tamamlanması isə ərəb işğalları nəticəsində Azərbaycan Albaniyası dövlətinin süqutu və bu işğalın sonunda müstəqil dövlətçilik ənənələrinin dirçəlişi ilə əlaqəlidir. Lakin tarixi ardıcıllığı qorumaq və əlaqələndirmə məqsədilə bir qədər sonrakı dövrlərə də müraciət olunmuşdur.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini Kür-Araz qovşağı ərazisindəki ilk orta əsr abidələrindəki arxeoloji qazıntılar zamanı aşkar olunmuş arxeoloji abidələr – yaşayış yerləri, qəbir abidələri, sosial və dini tikililər, körpülər, karvansaraylar, memorial abidələr və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ilk orta əsrlərdə Kür-Araz qovşağının yaşayış yerlərində həyatın yaranma,

inkişaf və tənəzzül dinamikasını, əhalinin təsərrüfat həyatını, dini görüşlərini, sənətkarlığın inkişaf səviyyəsini, iqtisadi həyatını öyrənmək və ticarətin bu sahədəki rolunu müəyyənləşdirmək, memarlıq, qəbir abidələrini tədqiq etməkdir. Yazılı mənbələrin məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin müqayisəli təhlili əsasında bölgənin tarixinin öyrənilməsi də tədqiqat işinin məqsədlərindəndir. Tədqiqatın əsas vəzifəsi Azərbaycan (Qafqaz) Albaniyası tarixinin ayrı-ayrı problemlərinin öyrənilməsində Kür-Araz qovşağı ərazisinin ilk orta əsr abidələrinin yerini və rolunu müəyyənləşdirmək, onların timsalında ölkənin təsərrüfat və mədəni həyatında baş vermiş yenilikləri izləməkdir. Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir.

-Kür – Araz qovşağı ərazisinin ilk orta əsr yaşayış yerləri və onlara məxsus qəbir abidələrini kompleks şəkildə tədqiq etmək, onları xəritələşdirmək.

- Bölgənin ilk orta əsr arxeoloji abidələrini sənədləşdirmək;

- Arxeoloji qazıntılar zamanı aşkarlanmış materiallar əsasında bölgənin təsərrüfat həyatını öyrənmək;

**Mövzunun mənbəşünaslıq bazası.** Tədqiqat işinin mühüm mənbəşünaslıq bazası müəllifin özünündə iştirak etdiyi qazıntılar zamanı aşkarlanmış arxeoloji materiallara və ərazidən əldə olunan təsadüfi tapıntılara əsaslanan maddi mədəniyyət nümunələridir. Bununla yanaşı dissertasiya işində yeri gəldikcə yazılı mənbə məlumatlarının arxeoloji materiallarla uzlaşdırılması da daim diqqətdə saxlanılmışdır.

Problemin öyrənilməsində yeri gəldikcə orta əsr ərəb və fars müəlliflərinin və digərlərinin bölgəyə dair məlumatlarından istifadə edilmişdir. Yazılı mənbələrdə bəzi kənd tipli yaşayış yerləri və şəhərlər haqqındakı yazılı məlumatların arxeoloji dəlillərlə uzlaşdıraraq gəlinmiş nəticələri elmi işin mühüm hissəsini əhatə edir.

**Problemin öyrənilmə dərəcəsi.** Kür-Araz qovşağı ərazisi cəmiyyət tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən abidələrlə zəngindir. Bu abidələr əsasən müxtəlif tipli yaşayış yerlərindən, qəbiristanlıqlardan, sənətkarlıq emalatxanalarından, suvarma vasitələrindən körpü və karvansaraylardan həmçinin, müdafiə xarakterli tikililərdən ibarətdir ki, onlardan da bəziləri haqqında dövrü mətbuatda, eləcə də ayrı-ayrı tədqiqat əsərlərində qismən də olsa məlumatlar vardır.

Kür-Araz qovşağı ərazisinin ilk orta əsr maddi mədəniyyət abidələri müəyyən mərhələdə xalqımızın tarixini və mədəniyyətini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Arxeoloji tədqiqatlar göstərir ki, ərazidə aparılan arasıkəsilməz müharibələr, siyasi, dini-ideoloji dəyişikliklər nəticəsində bölgənin maddi mədəniyyət abidələri ciddi dağıntılara məruz qalsa da torpaq öz qoynunda bu abidələrin bir qismini qoruyub saxlamışdır ki, təqdim edilən əsər də həmin abidələrin arxeoloji baxımdan öyrənilməsi nəticəsində tamamlanmışdır.

Kür-Araz qovşağı bölgəsinin ayrı-ayrı ilk orta əsr yaşayış yerləri və iqtisadi əlaqələri haqqında həm orta əsr müəlliflərinin, həm də ayrı-ayrı tədqiqatçıların əsərlərində məlumatlar vardır. Lakin istər çar Rusiyası, istərsə də sovet hakimiyyəti illərində respublikamızda arxeoloji tədqiqatların məqsədli şəkildə qeyri-bərabər aparılması səbəbindən Kür-Araz qovşağı ərazisinin tədqiqi də diqqətdən kənarda qalmışdır. Xüsusilə sovet hakimiyyətinin planlı iqtisadiyyatına əsaslanaraq əkin sahələrinin genişləndirilməsi ilə əlaqədar ərazidəki bir çox maddi-mədəniyyət abidələri sıradan çıxarılmış, onlardan əldə edilən təsadüfi tapıntılar isə tədqiqata cəlb edilmədən ya tamamilə yararsız hala salınmış, ya da şəxsi kolleksiyaya çevrilmişdir.

Sovet tarixşünaslığında VII-IX əsrlərdə Albaniyanın cənub-qərb və cənub sərhədləri məsələsi ilk dəfə olaraq akademik Z.M.Bünyadov tərəfindən düzgün tədqiq edilmişdir. Bu tədqiqatlar sayəsində Kür-Araz qovşağı ərazisinin ilk orta əsrlər dövrünün bəzi qaranlıq səhifələrinə aydınlıqlar gətirilmişdir.

Arxeoloji tədqiqatlar göstərir ki, VI əsrin axırları - VII əsrin əvvəllərində Kür-Araz qovşağı ərazisində yeni, daha iri yaşayış məskənləri salınır və möhkəmlənirdi. Buna səbəb hər şeydən əvvəl həmin dövrdə məhsuldar qüvvələrin və məhsula tələbatın daha da artması idi.

1902-ci ildə M.A.Mamayev Kür-Araz qovşağı abidələrinin bir qismini qeydə almışdı. Lakin axtarış və tədqiqatlar planlı şəkildə aparılmadığından heç bir nəticə verməmişdir. T.S.Passek 1937-ci ildə Kür-Araz qovşağı bölgəsinə daxil olan Cəfərxan kəndində kəşfiyyat xarakterli arxeoloji qazıntı işi aparmışdı. T.S.Passek həmin qəbiristanlıqda iki tip qəbir abidəsinin - küp və torpaq qəbirlərin olduğunu qeyd etmişdir. Torpaq qəbirlərdə skeletlər bükülü vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərdən qırmızı və sarımtıl rəngli gil qablar

tapılmışdır. Qablar tayqulplu müxtəlif küpələrdən ibarətdir. Gil qablar Yaloylutəpə mədəniyyəti və küp qəbirlərdən əldə edilmiş avadanlıqlarla çox yaxınlıq təşkil edir. Tədqiqatlar bu qəbirlərin əsasən antik dövrə aid olduğunu təsdiq etdiyindən, mövzu ilə bağlı ancaq ardıcıllığı izləmək baxımından əhəmiyyətlidir.

1980-ci ildən Kür-Araz qovşağı ərazisində meliorasiya işlərinin aparılması ilə əlaqədar ərazidə arxeoloji tədqiqat işləri də genişləndirilir. Bu məqsədlə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Ə.Novruzlunun rəhbərliyi ilə əraziyə arxeoloji ekspedisiya göndərir. Ekspedisiya Qaraqaşlı və Cavad nekropollarında, Surra yaşayış yerində arxeoloji tədqiqatlar aparmışdır. Arxeoloji qazıntıların nəticələri müvafiq hesabatlarda və Ə.Novruzlunun «Cavad bölgəsinin tarixi», «Sabirabadın tarixi», «Saatlının tarixi» və s. əsərlərində əksini tapmışdır.

R. Əhmədovun rəhbərlik etdiyi ekspedisiya arxeoloji tədqiqat işlərini əsasən Abdulabad və Şəhərgah yaşayış yerlərində aparmışdır. Kür-Araz qovşağı ərazisində yerləşən Dağ Kolanı kəndində R.Vahidov və Ş.Əhmədov tərəfindən aparılan arxeoloji tədqiqatlar da uğurla nəticələnmişdir.

A.Məmmədov 2003-cü ildə Abdulabad kəndi ərazisindəki ilk orta əsr yaşayış yerində, Put təpəsində, Əliləmbəyli kəndindəki Çanaqtəpə yaşayış yerində kəşfiyyat xarakterli qazıntılar aparmış, nəticələr «Muğan bölgəsində yeni arxeoloji tapıntı», «Put təpəsində arxeoloji tədqiqatlar»( «Qərib piri», «Baba Samit piri» və s. məqalələrdə və elmi hesabatlarda ümumiləşdirilmişdir.

A.Məmmədov tərəfindən Kür çayının sol sahilində «Put təpəsi» deyilən yerdə aparılan arxeoloji qazıntı zamanı əldə edilmiş, gildən hazırlanmış zoomorf tipli dairəvi qab maraq doğurur. Onun ortasında ağzı açıq halda olan ilan təsviri vardır.

Put təpəsindən üç kilometr şimal-şərqdə «Məmiş çalası» adlanan yerdə aşkarlanmış orta həcmli təsərrüfat küpləri, boşqab, cam tipli qablardan və s. isə əsasən məişətdə istifadə edildiyi müəyyənləşdirilmişdir.

Tədqiqatçı E.Abbasova Cənub-Şərqi Şirvanın orta əsr yaşayış yerləri adlı namizədlik dissertasiyası işində bölgənin IX-XVII əsr arxeoloji abidələrinin tədqiqinə yer ayırsa da ilk orta əsr abidələrinə diqqət yetirilməmişdir. Bu da əsasən tədqiq edilən mövzunun xronoloji çərçivəsi ilə əlaqəli olmuşdur.

XVI əsrin əvvəllərində yaşamış Əbdürrəşid əl-Bakuvinin «Təlxis əl-Asar və əcaib əl-məlik əl-qəhhar» (Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri) kitabında Kür-Araz qovşağı ərazisinin də daxil olduğu Kür və onun ətraf yaşayış yerləri haqqında xeyli məlumat verilmişdir. Əsərdə tədqiqat bölgəsindən axan Kür çayının başlanğıcının Curzan ölkəsində olması haqqında məlumat vardır. Burada qeyd edilir ki, Kür özündən kiçik Araz çayı ilə Suqovuşanda birləşir və Xəzər dənizinə tökülür. Burada balıq ovlamaq üçün bəndlər qurulub və müxtəlif növ balıqlar tutulur. Orada çoxlu su quşları və çəltik zəmiləri var. Bölgədə aparılan arxeoloji tədqiqatlar Kür-Araz qovşağı ərazisinin ilk orta əsrlərdə də eyni təbii şəraitə malik olduğunu göstərir.

Mənbələrdə Kür-Araz qovşağı ərazisindəki Cavad kəndi ərazisində orta əsrlərdə Kür çayı üstündə keçid məntəqəsinin olduğu qeyd edilmişdir. Səyyah A.Olearinin Cavad toponimini ərəb dilindəki cavus sözü ilə (mənası keçid deməkdir) əlaqələndirməsi də maraq doğurur. Digər Orta əsr mənbələrində də Cavad keçidi ifadəsinə rast gəlinir. Mənbələrdə Kür üstü - Cavadın yeri, Zəngənə kəndi yaxınlığındakı ərazi isə Şəhərgah adı ilə məlumdur.

Şəhərgah erkən orta əsr yaşayış məskəni olub, Kürdəmir rayonunun Ərəbqubalı və Sabirabad rayonunun Zəngənə kəndləri arasındakı geniş bir ərazini əhatə edir. Şəhər qalığının sahəsi 25-30 hektardır. 1992-ci ildəki kəşfiyyat qazıntısı zamanı buradan əldə edilmiş maddi-mədəniyyət nümunələrinin xeyli hissəsi ilk orta əsrlər dövrünə aiddir.

Cavad yaşayış yeri isə Cavad kəndi yaxınlığında, əkin sahəsində yerləşir. Yaşayış yerində ictimai binaların və təsərrüfat tikililərinin ilk orta əsrlərin son mərhələsinə aid olan qalıqları üzə çıxarılmışdır. Yaşayış yerindən həm şirsiz, həm də şirli saxsı məmulatları aşkar edilmişdir.

Erkən orta əsrlər dövrünə aid Surra yaşayış yeri Kür çayının sol sahilində, düzənlik sahədə yerləşir. Onun əsas hissəsi üç hektarlıq əkin sahəsini əhatə edir. Buradakı arxeoloji kəşfiyyat işləri zamanı mədəni təbəqədən əldə edilmiş maddi-mədəniyyət nümunələrinə əsasən abidə ilk orta əsrlər dövrünə aid edilmişdir.

Kür-Araz qovşağı ərazisindəki Şəhərgah küp qəbirləri A.Nuriyev tərəfindən öyrənilmişdir. A.Nuriyev Şəhərgah küp qəbirlərinin erkən orta əsrlərə aid olduğunu söyləmişdir.

Şəhərgahda küp qəbirləri 1-1,5 metr dərinlikdə müxtəlif istiqamətlərdə basdırılmışdır. Əvvəlki dövrdə olduğu kimi, burada da ölü bükülü vəziyyətdə sağ və ya sol böyrü üstə qoyulmuşdur. Şəhərgahdakı küp qəbirlərindən İlk orta əsrlər üçün xarakterik maddi-mədəniyyət qalıqları əldə edilmişdir. Kür-Araz qovşağı ərazisi üçün xarakterik olan küp qəbirlər Kür çayının həm sağ, həm də sol sahilində aşkar edilmişdir. Küp qəbirlərin tədqiqi maddi-mədəniyyətdəki ənənəviliyin və eyniliyin izlənilməsi baxımından əhəmiyyətlidir.

Kür-Araz qovşağı ərazisinin İlk orta əsr abidələrinin arxeoloji cəhətdən öyrənilməsi baxımından R.M.Vahidovun «Mingəçevir lll-VIII əsrlərdə», «Mingəçevirin orta əsr yaşayış yerləri» adlı əsərləri əhəmiyyətlidir. Q.M.Əhmədovun «Orta əsr Beyləqan şəhəri», «Örənqala», «Azərbaycanın şirsiz saxsı məmulatı» və s. kimi əsərləri müqayisəli təhlil baxımından dəyərlidir.

A.B.Nuriyevin «Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi», «Qafqaz Albaniyasında sənətkarlıq» adlı əsərləri erkən orta əsrlərə aid maddi-mədəniyyət nümunələri, onların xronologiyasını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

A.M.Məmmədovun «Gəncəbasar IV-XIII əsrlərdə», "Qədim Gəncə", «Qoşqarçay və Kürəkçay hövzələrinin tarixi-arxeoloji tədqiqi» adlı əsərləri, «Qoşqarçay və İncəçay hövzələrinin tarixi-arxeoloji tədqiqi (lll-XVII əsrlər)» adlı doktorluq dissertasiyası da Kür-Araz qovşağı ərazisinin ilk orta əsr yaşayış yerləri, qəbir abidələri və s. ilə digər bölgələrin həmdövr abidələri arasında olan bağlılığı öyrənməyə kömək edir. Tədqiq olunan bölgənin arxeoloji abidələrinin dərindən tədqiq edilməsində Qafar Cəbiyevin "Girdimanın tarixi və tarixi coğrafiyası" və digər əsərlərinin əhəmiyyəti əvəzsizdir.

Ş.S.Əhmədovun «Pirsaatçay hövzəsinin llk orta əsr abidələri» adlı əsəri bütövlükdə Şirvan bölgəsinin bu dövr abidələrini öyrənmək baxımından qiymətlidir.

A.Orucovun «İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq sənəti» adlı əsəri saxsı materiallarının xarakterik xüsusiyyətlərini aşkar etməkdə mühüm rol oynayır. A.Nuriyev və Ə.Babayevin «Bərdə şəhərinin tarixi» adlı əsəri də müqayisəli təhlil baxımından əhəmiyyətlidir.

Təkcə Kür-Araz qovşağı ərazisi abidələrinin deyil, bütövlükdə Azərbaycanın ilk orta əsrlər dövrünün tarixi-arxeoloji baxımdan

öyrənilməsində M.Xəlilovun, Ə.ƏIiyevin, E.Qasımovun, F.Osmanovun, C.Bağırzadənin və XXI əsrin əvvəllərindən başlayaraq ilk orta əsrlər dövrü üzrə müdafiə etmiş gənc tədqiqatçıların əsərlərinin əhəmiyyəti böyükdür.

Ümumilikdə, tədqiqat zamanı materialların analizi və müqayisəli təhlil metodundan istifadə etmək üçün Z.M.Bünyadov, R.M.Vahidov, S.M.Qazıyev, V.H.Əliyev, Q.S.İsmayılzadə, İ.M.Cəfərzadə, Q.M.Əhmədov, C.A.Xəlilov, A.Q.Seyidov, N.M.Vəlixanlı, F.C.Məmmədova, A.B.Nuriyev, R.B.Göyüşov, İ.A.Babayev, Q.C.Cəbiyev, K.T.Əliyev, A.M.Məmmədov, M.C.Xəlilov, A.Ş.Orucov, F.L.Osmanov, Q.M.Aslanov, A.İ.Ələkbərov, A.M.Quliyev, E.İ.Abbasova, Ə.Ə.Əliyev, Ş.S.Əhmədov, C.V.Bağırzadə, S.K.Babayeva, G.O.Hacıyev, V.A.Qasımlı, L.Ş.Əhmədova, T.V.Əliyev və başqa mütəxəssislərin elmi əsər və hesabatlarına ümumi şəkildə müraciət müraciət olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Kür-Araz qovşağı ərazisinin ilk orta əsrlər arxeoloji abidələri müəllif tərəfindən ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb olunmuş, yaşayış yerləri, qəbir abidələri və memorial tikililər sistemli şəkildə öyrənilmişdir.

Müxtəlif vaxtlarda bölgənin və qonşu ərazilərin ilk orta əsr abidələrində aparılmış arxeoloji tədqiqatların nəticələri ilk dəfə olaraq müəllif tərəfindən qruplaşdırılaraq müqayisələr aparılmışdır. Kür-Araz qovşağı ərazisinin ilk orta əsr arxeoloji abidələrinin toplu şəklində ümumiləşdirilməsi tədqiqat işinin mühüm yeniliklərindəndir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Dissertasiya işinin nəzəri – metodoloji əsasını müxtəlif ərazilərdən əldə edilmiş həmdövr maddi-mədəniyyət nümunələri ilə müqayisəli təhlil və ümumiləşdirmə - oxşarlıq metodu təşkil edir.

Burada həmçinin Kür-Araz qovşağı ərazisinin ilk orta əsr maddi mədəniyyətinin özündən əvvəlki antik dövr mədəniyyəti əsasında ənənəvilik prinsipinə uyğun olaraq inkişafı və onun yerli əlamətlərə malik olması arxeoloji qazıntıların nəticələri ilə sübut olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti:** Dissertasiya işinin elmi yeniliklərindən aşağıdakı istiqamətlərdə istifadə oluna bilər:

-Azərbaycan arxeologiyasında ilk orta əsrlər dövrünə aid monoqrafik əsərlərin yazılmasında;

-Çoxcildlik Azərbaycan tarixi, Azərbaycan arxeologiyasına dair ümumiləşdirici əsərlərin tərtibində;

-İlk orta əsr arxeoloji abidələrinin xəritələşdirilməsində;

-Kür-Araz qovşağı ərazisində tarix-diyarşünaslıq muzeylərinin qurulmasında;

-Bölgə üzrə arxeoturizmin təşkilində;

-Müvafiq sahələr üzrə ali və orta məktəb dərsliklərinin hazırlanmasında.

**Dissertasiyanın aprobasiyası.** "Kür-Araz qovşağı ərazisinin ilk orta əsr arxeoloji abidələri (tarixi-arxeoloji tədqiqat)" adlı dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Azərbaycanın İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir. Elmi işin mühüm müddəaları müəllifin müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarında, habelə, nəşr etdirmiş olduğu elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi qəbul olunmuş ixtisarlar, giriş, dörd fəsil, nəticə, ədəbiyyat siyahısı, işə əlavə edilmiş xəritə, tablo və şəkillərdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, problemin öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri və metedoloji əsası, təcrübi əhəmiyyəti, aprobasiyası və quruluşundan bəhs olunur.

Dissertasiyanın giriş hissəsində **"Ərazinin təbii-coğrafi şəraiti və yerli xammal ehtiyatları"** haqqında məlumat verilir. Kür-Araz qovşağı ərazisi əsasən düzənliklərdən ibarət olduğu üçün torpaqları məhsuldar və əkinə yararlıdır. Kür və Araz çaylarının tarixən bu ərazidən axması, burada təsərrüfatın müxtəlif sahələrinin inkişafına əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikasının cənub qapısı hesab olunan, ana Kürün sahilində yerləşən Kür-Araz qovşağı ərazisi həm də füsunkar təbiəti, bol təbii sərvətləri və tarixi-arxeoloji abidələri ilə fərqlənir. Kür-Araz qovşağı ərazisi Aran bölgəsinə daxildir və əsasən Kür-Araz ovalığını əhatə edir. Bölgənin düzənlik əraziləri dəniz səviyyəsindən 28 metr aşağıda yerləşir. Boz-qonur, boz-çəmən, şoran torpaqları daha çoxdur. Yayı isti, qışı mülayim keçən Kür-Araz ovalığında il ərzində az miqdarda düşən yağıntı güclü buxarlanmaya səbəb olur ki, bu da kənd təsərrüfatı bitkilərinin süni suvarmaya olan tələbatını artırır. Orta illik temperatur -3 dərəcədən +12 dərəcəyə qədər

dəyişir. Yağıntının miqdarı aprel-sentyabr aylarında 100-150, oktyabr-noyabr aylarında 200-300 mm-dir.

Qeyd olunan təbii şərait bölgədə əhalinin özündən əvvəlki ənənələr əsasında ilk orta əsrlərdə də yaşayışını davam etdirməsinə və təsərrüfatın müxtəlif sahələrinin inkişafına zəmin yaratmışdır.

Dissertasiyanın I fəsli **"Kür-Araz qovşağı ərazisinin yaşayış yerləri** adlanır və üç yarımfəsildən ibarətdir.

**"Kəndtipli yaşayış yerləri"** (1.1.) adlanan birinci yarımfəsildə ərazinin Atqıran, Put təpəsi, Kürsəngi kimi ilk orta əsr abidələrinin tədqiqinə xüsusi yer ayrılır. İlkin müşahidələr göstərir ki, Atqıran yaşayış yerinin yaxınlığında əvvəllər kiçik göllər olmuşdur ki, bunlar da əhalinin təsərrüfat həyatında mühüm rol oynamışdır. Belə göllərdən biri Xan çalası adlanan yerdən şimal qərbdə, Şirilqan deyilən ərazidə, Kolanı kəndinin mərkəzindədir. Həmin göllərin bir tərəfi Gürgəbil deyilən böyük gölməçəyə birləşmişdir ki, burada da vaxtilə heyvandarlıq kompleksi olmuşdur.

Atqıran yaşayış yeri Hacıqabul rayon mərkəzindən 25 km qərbdə, Kolanı kəndi ərazisində, Abdulabad kəndindəki Şəhərgah adlı yaşayış məskəninin 6-7 km cənub-şərqində, Xan çalasının qərbində, onunla paralel vəziyyətdə, uzunluğu 400 metr, eni 100 metr olan bir təpəlikdə yerləşir ki, o da Sınıq körpü deyilən əraziyə qədər uzanır. Abidənin digərlərindən fərqi ondadır ki, təpənin həm şimal, həm də cənub hissəsində Qobu (Kür çayının qədim yatağı) vardır. Cənub hissədəki Qobu Xan çalası adlanır. Təpənin hündürlüyü 2 metrdən çoxdur. Ərazidə Sovet dövründə tarlalara dərman səpən təyyarələrin enməsi üçün meydança düzəldilərkən torpağın üst qatı götürülmüş, meliorasiya işləri zamanı ilk orta əsrlər dövrünə aid xeyli maddi-mədəniyyət nümunəsi məhv edilmişdir. Arxeoloji qazıntılar zamanı bünövrəsi put daşlarından, hörgüsü isə çiy (ayı balası) kərpicdən olan yaşayış binasının qalıqları, xeyli miqdarda osteoloji və ixtioloji qalıqlar, bəzək əşyası kimi istifadə edilən bir neçə ədəd muncuq, bərni və küpə formalı qablar, orta və iri həcmli təsərrüfat küplərindən hissələr və s. əldə edilmişdir. Arxeoloji tədqiqatlar Atqıran yaşayış yerinin iki mədəni təbəqədən ibarət olduğunu sübut etmişdir. Mədəni təbəqələrin ümumi qalınlığı 2,1 metr olmuşdur. Birinci mədəni təbəqənin qalınlığı 1,3 metr olub III-VIII əsrləri, ikinci mədəni təbəqənin qalınlığı isə 0,8 metr olub IX-XIV əsrləri əhatə edir.

Kür-Araz qovşağı ərazisindəki ilk orta əsr yaşayış yerlərinin əksəriyyəti torpaq təpəliklərin üstündə yerləşir ki, bu da torpağın şoranlığı, Kürün daşqınlarından qorunmaq, müdafiəni asanlaşdırmaq və ticarət yollarını nəzarətdə saxlamaq məqsədini daşıyır.

Put təpəsi yaşayış yeri Şəhərgahdan 7-8 km qərbdə, Sabirabad rayonunun Quruzma kəndinin təqribən bir kilometr şimalında, Qaraqaşlı-Quruzma yolunun iki kilometr qərbində, Bakı-Tiflis şosse yolunun yeddi kilometr cənubunda, hər tərəfi əkin yerləri ilə əhatə olunmuş bir sahədə yerləşir. Put təpəsinin sahəsi təxminən bir hektardır. Arxeoloji qazıntıların nəticələri Put təpəsində iki mədəni təbəqənin olduğunu, I mədəni təbəqənin V-VIII, II mədəni təbəqənin isə IX-XIII əsrlərə aid olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı yaşayış yerindən bir neçə ədəd put daş əldə edilmişdir ki, onlar da dağınıq halda deyil, ictimai binanın bünövrəsindən tapılmışdır. Belə daşlar kanal çəkilən vaxt və yaxud təpə dağıdılanda da əldə olunmuşdur.

Sabirabad rayonunun Əliləmbəyli kəndində aşkar olunmuş Çanaq təpə Kür-Araz qovşağı ərazisinin ilk orta əsr kəndtipli yaşayış məskənləri içərisində abidə kimi çox əhəmiyyətlidir. İlkin kəşfiyyat xarakterli arxeoloji qazıntılar göstərmişdir ki, bu ərazidə zəngin mədəni təbəqəsi olan ilk orta əsr yaşayış yeri və ona müvafiq qəbiristanlıq sahəsi yerləşir. Abidənin əhatə etdiyi sahənin eni təxminən 700 m, uzunluğu 850 metrdir. Əkin işləri ilə əlaqədar suvarma işləri zamanı suyun özünə yer tapması nəticəsində kollektordan 5-6 metr şərqdə ilk orta əsrlər dövrünə aid xeyli maddi-mədəniyyət nümunəsi əldə edilmişdir. Bu tip materiallar kollektorun çəkilişi və əkin işləri aparılarkən da aşkarlanmış, lakin diqqətsizlikdən dağıdılmışdır.

Sabirabad rayonunun Əliləmbəyli kəndində aşkara çıxarılmış bu yeni abidədə arxeoloji qazıntılar onun çoxtəbəqəli yaşayış yeri olduğunu təsdiq etmişdir. Arxeoloji materialların müqayisəli analizi burada yaşayışın eramızın I-XV əsrlərində ardıcıl davam etdiyini söyləməyə əsas verir.

Kürsəngi ilk orta əsr yaşayış yeri Salyan şəhərindən 30 km şimal-şərqdə yerləşir və “Kür çayının axınının səngidiyi yer” mənasını verir. Kəndin yaxınlığında palçıq vulkanından yaranmış eyni adlı təpəlik yerləşir. Kürsəngi təpəliyinin şərq yamacında 5x5 metr ölçüdə kəşfiyyat qazıntısı aparılmış və nəticədə IV-XIII əsrləri əhatə edən

maddi-mədəniyyət qalıqları aşkarlanmışdır. Onlar, əsasən, ictimai binaların qalıqlarından, boşqab, nəlbəki, duz qabı, qənddan tipli qabların hissəsindən ibarətdir. Yaşayış yerindən əldə edilmiş "ayı balası" adlandırılan çiy kərpiclər 36x30x8 sm ölçüdədir. Yaşayış yerinin yaxınlığında onunla həmdövr qəbiristanlıq da vardır.

I fəslin ikinci yarımfəsli **"Şəhərtipli yaşayış yerləri"** (1.2.) adlanır. Bu hissədə Kür-Araz qovşağı ərazisinin ilk orta əsr şəhər tipli yaşayış yerlərinin arxeoloji cəhətdən tədqiqi öz əksini tapmışdır.

Şəhərgah. Kür-Araz qovşağı ərazisinin şəhərtipli yaşayış məskənləri içərisində Hacıqabul rayonunun Abdulabad kəndi ərazisindəki "Şəhərgah" yaşayış yeri fərqlənir. Şəhərgah yaşayış yeri Abdulabad kəndinin 0,5 km cənub-şərqində, yer səthindən 4 metr hündürlükdə olan torpaq təpəliyin ətəyində Atqıran yaşayış məskənindən 6-7 km şimal-qərbdə yerləşir. Sahəsi 2 hektara yaxındır. Şəhərgah yaşayış yerində abidənin şərq (I qazıntı sahəsi) və şimal (II qazıntı sahəsi) tərəflərində hər biri 5x5 metr ölçüdə kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri aparılmışdır. Şəhərgahda arxeoloji qazıntılar zamanı iki mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. Yaşayış yerindəki I mədəni təbəqənin qalınlığı 1,7 metrdir və III-VIII əsrləri əhatə edir. Şəhərgah yaşayış yerinin I mədəni təbəqəsində yaşayış binalarının qalıqlarına az rast gəlinməsi torpağın qumlu və gilli olması, binaların isə möhrə və çiy kərpiclə hörülməsi ilə bağlıdır. Digər tərəfdən yeni tikilən binaların əvvəlkilərin məhvinə səbəb olması da tikinti qalıqlarının az olmasını şərtləndirən amillərdəndir. Əldə edilən ağac çürüntüləri və suvaq parçalarına əsasən binaların üstünün qarğı və ya qamışla örtüldüyü fikrini söyləmək olar. Şəhərgah yaşayış yerində qalınlığı 1 metr olan və IX-XIII əsrləri əhatə edən ikinci mədəni təbəqədən əsasən iri təsərrüfat küpləri, təndir, ocaq yerləri, heyvan sümükləri, təsərrüfat quyuları aşkar edilmişdir. Buradan 34x33x10 sm ölçüdə çiy kərpiclərlə hörülmüş, 40 sm hündürlükdə, uzunluğu 1 metr 20 sm olan divar qalığı da üzə çıxarılmışdır.

**Zəngənə** yaşayış yeri Cavad kəndindən 8 km şimalda, eyni adlı kəndin ərazisində yerləşir. Bu ərazidə 5x10 metr ölçüdə arxeoloji kəşfiyyat qazıntısı aparılmış, ilk orta əsrlərə aid bir mədəni təbəqəsi olan yaşayış yerinin sahəsinin 2,1 hektar olduğu müəyyənləşdirilmişdir. Arxeoloji tədqiqat işləri zamanı bu ərazidən xeyli miqdarda maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

Zəngənə yaşayış yerinin cənub tərəfində çoxlu kərpic qalıqları və çıxdaşları əldə edilmişdir ki, bu da onların yerli şəraitdə hazırlandığını göstərir. Kərpiclərin ölçüləri müxtəlifdir. Kərpiclərin mahir sənətkarlar tərəfindən hazırlanmadığı hiss edilir.

I fəslin üçüncü yarımfəsli (1.3) Şəhər yerləri adlanır. Belə abidələr içərisində Muğan şəhərinin qalıqları hesab edilən I və II Bəndovan, Qırxçıraq abidələri seçilir.

I və II Bəndovan yaşayış yerlərində tədqiqatlar zamanı əldə edilən saxsı nümunələrinin forma və məzmun müxtəlifliyi, onların hazırlanma texnalogiyası bu ərazidə qeyd olunan dövrdə inkişaf etmiş şəhər tipli yaşayış yerinin mövcudluğu barədə məlumat verir. Bu keramika nümunələrinin bəziləri Qırxçıraq ərazisindəki orta əsr yaşayış yerindən əldə edilmiş materialların oxşarlarıdır. Gil qab istehsalı üçün ərazidəki zəngin xammal mənbəyi belə nəfis dulusçuluq məmulatlarının istehsalına şərait yaratmışdır. Aparılan arxeoloji tədqiqatların nəticələri I Bəndovan və II Bəndovan yaşayış yerlərində VII-XIV əsrlərdə dulusçuluq sənətinin mərhələlərlə inkişaf etdiyini və öz inkişafının ən yüksək nöqtəsinə çatdığını sübut etmişdir.

Kür-Araz qovşağı ərazisinin şəhər yerlərindən olan Qırxçıraqda R.B.Göyüşov, A.M.Məmmədov, N.M.Müseyibli tərəfindən arxeoloji tədqiqat işləri aparılmışdır. Salyan rayon mərkəzindən 13 km şimal-şərqdə yerləşən Qırxçıraq yaşayış yerinin ümumi sahəsinin 40 hektardan artıq olduğu müəyyənləşdirilmişdir. Arxeoloji qazıntılar zamanı, əsasən, III-XVII əsrlərə aid edilən boşqab və qazan tipli qablar, onların hissələri, duz qabları, qənddan tipli qablar, yerli əhali arasında “qara çıraq” adlanan gil çıraqlar, Şirvanşah və Hülaki hökmdarlarının adlarına kəsilmiş pullar və s. tapılmışdır. Arxeoloji tədqiqatlar göstərmişdir ki, əsası Qazan xan tərəfindən qoyulmuş Mahmudabad şəhəri salınana qədər Qırxçıraq həmin ərazidə III əsrdən yaşayış yeri kimi mövcud olmuşdur. Arxeoloji qazıntılar 1,5 metr dərinliyə qədər davam etmişdir. Bəzi hissələrdə tikinti qalıqlarına rast gəlinmişdir. İlk orta əsrlərə aid tikintilərdə bişmiş kərpicdən və çay daşından istifadə olunmuşdur. Arxeoloji qazıntılar zamanı içərisində kül qalıqları olan bir neçə ədəd təndir də aşkarlanmışdır ki, onların da diametri 90-100 sm olmuşdur. Qırxçıraqdan aşkarlanmış saxsı məmulatının, əsasən müxtəlif növ məişət qablarının hissələrindən ibarət olması, onların böyük əksəriyyətinin sadə üsullarla hazırlandığı müəyyənləşdirilmişdir. Bir ədəd saxsı boşqab parçasının içərisində isə

fars əlifbası ilə yazı qeydə alınmışdır. Epiqraf M.M.Nemət bu yazının fars dilində yazılmış şeirin bir hissəsi olduğunu müəyyən etmişdir. Qırxçıraqda 5x10 metr sahədə aparılmış arxeoloji tədqiqatlar və qazıntı işləri 2,4 metrə qədər davam etdirilmiş və nəticədə iki mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. I mədəni təbəqə eramızın III-VIII əsrlərinə aiddir və 0,9 metr qalınlığındadır. II mədəni təbəqə isə IX əsrdən başlayaraq XVII əsrə qədərki bir mərhələni əhatə edir. Üst mədəni təbəqə dağıntılara məruz qaldığından onun yuxarı qatı götürülmüş və yalnız 1,5 metri salamat qalmışdır.

Dissertasiyanın **II fəsli "Qəbir abidələri və memorial tikililər"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Küp qəbirlər"** (2.1.) adlanır. Küp qəbirlər yerli əhali arasında Baş təpə adlanan abidədə təsərrüfat işləri aparılarkən aşkarlanmışdır. Təpənin cənub-qərb hissəsinin üst qatı götürülərkən küp qəbirlər dağıdıldığından ətrafa xeyli maddi-mədəniyyət qalıqları səpələnmişdir. Bunlar insan sümükləri, küp qəbirlərin qalıqları və dəfn olunan şəxsə məxsus avadanlıqlardır. Qəbiristanlığın iki yerində 10x10 m ölçüdə kəşfiyyat qazıntıları aparılmış və 5 küp qəbir öyrənilmişdir. Qəbirlərin son antik – ilk orta əsrlər dövrünün əvvəllərinə aid olduğu qənaətinə gəlinmişdir. Vaxtilə Şərgah küp qəbirlərində tədqiqat işləri aparan A.Nuriyev də onları ilk orta əsrlər dövrünə aid etmişdir. Bu da bəzi ərazilərdə köhnə adət-ənənələrin uzun müddət davam etdirilməsi ilə əlaqəlidir.

Çanaq təpədə aparılan ilkin müşahidələr də göstərmişdir ki, ərazinin 40-45 m-lik şimal-şərq sahəsini küp qəbirlərindən ibarət qəbiristanlıq sahəsi əhatə edir. Qəbiristanlığın şərq və cənub tərəfində hər biri 10x5 m ölçüdə arxeoloji qazıntı işləri aparılmış və 8 küp qəbir öyrənilmişdir. Tədqiqatlar göstərir ki, dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycan Albaniyasında da tarixi inkişaf proseslərində, cəmiyyətin ictimai, iqtisadi vəziyyətinə və ideoloji görüşlərinə əsasən müxtəlif formalarda dəfn mərasimləri olmuşdur. Çanaqtəpədə aşkarlanan küp qəbirlər əsasən son antik dövrə aid olduğundan mövzu ilə ancaq ənənəviliyin izlənilməsi baxımından əlaqələndirilir.

II fəslin ikinci yarımfəsli **Torpaq qəbirləri** (2.2.) adlanır. Bu tip qəbirlər çoxluğu ilə diqqəti cəlb edir. Çanaqtəpədə aşkarlanmış topraq qəbirlərdən birinin uzunluğu 2 metr, eni 0,9 metr, dərinliyi isə 1,4 metrdir. Skeletin istiqaməti günçıxana doğrudur. Bu tip qəbirlər

Hacıqabul rayonunun Abdulabad kəndi ərazisindəki yaşayış yerinin cənub hissəsində də aşkar edilmişdir. Burada ölülər sağ və sol böyrü üstə, az bükülü, bəzən uzadılmış vəziyyətdə dəfn edilmişdir.

Sabirabad rayonunun Surra kəndi ərazisində aparılan kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri zamanı aşkar edilmiş torpaq qəbirləri isə, xam torpaqda dördkünc formada qazılmışdır. Qazıldıqları yerin relyefindən asılı olaraq bu qəbirlərin dərinliyi 1,2 metrdən 2,3 metrə qədərdir. Qəbir boşluğunun uzunluğu 1,60 metrdən - 2,65 metrədək, eni 0,9 metrdən - 1 metrədəkdir. Skeletlər üzü cənub – qərbə, yəni Kəbə evinə doğru sağ böyrü üstə uzadılmış vəziyyətdədirlər.Qəbirlərin ölçülərinin müxtəlifliyi həm də dəfn olunan şəxsin vəziyyəti ilə əlaqəlidir.

Hacıqabul rayonunun Kolanı kəndi ərazisində qeydə alınmış torpaq qəbirlər əvvəlkilərdən xeyli fərqlənir. Burada da ölünün yanına heç bir əşya qoyulmasa da qəbirlərin üstü qamışla örtülmüşdür. Ərazidə aparılan tədqiqat işlərinin nəticələrinə əsasən qəbirlərin VIII-IX əsrlərə aid olduğunu söyləmək olar.

Sabirabad rayonunun Quruzma kəndi ərazisindəki "Put" təpəsinin şərq hissəsində aparılan arxeoloji tədqiqatlar zamanı da buradan torpaq qəbirləri aşkar edilmişdir. Burada altı torpaq qəbirdə tədqiqat işləri aparılmışdır. Tədqiqat zamanı qəbirlərin ölçülərinə və dərinliyinə görə fərqləndiyi müəyyən edilmişdir ki, bu da ölünün yaşı və cinsi ilə əlaqəlidir. Belə ki. uşaq qəbirləri nisbətən kiçik, qadın qəbirləri isə 15 sm-ə qədər dərindir. Put təpəsinin üst mədəni təbəqəsindən əldə edilmiş materiallarla qəbirlər eyni dövrə,VII-VIII əsrlərə aiddirlər.

II fəslin üçüncü yarımfəsli “Memorial tikililər” (2.3.) adlanır. Kür-Araz qovşağı zəngin memorial abidələri ilə fərqlənən ərazilərdəndir.

Bölgənin memarlıq abidələri sırasında müstəsna əhəmiyyətə malik olan abidələrindən biri Qərib piridir. Qərib pirinin cənub-şərq istiqamətində 2x2 metr ölçüdə aparılan arxeoloji tədqiqatlar zamanı ilk orta əsrlərin son mərhələsinə aid maddi-mədəniyyət nümunələri, küplərdən hissələr, badya, cam tipli qablar aşkar edilmişdir. Arxeoloji materiallara əsasən, memarlıq abidəsi VII-VIII əsrlərə aid edilir. Baba Samit piri Sabirabad rayonunun Şıxlar kəndi ərazisində yerləşir. Şıxlar kəndinin adı da Baba Samit piri ilə əlaqəli olaraq “Şeyxlər” mənasındadır. Baba Samit pirinin giriş hissəsindəki iki ədəd qəbir

daşlarının üzərindəki yazılar eroziyaya uğradığından onları oxumaq mümkün deyil. Baba Samit pirinin ortasında uzunluğu 1,5 metr olan qəbir vardır. Qəbrin üstündə günbəz tikilmişdir. Baba Samit pirində aparılan tədqiqatlara əsasən demək olar ki, əgər imam Rza VIII əsrdə yaşamışdırsa, onda onun nəvəsi Baba Samit burada IX əsrin sonları - X əsrin əvvəllərində dəfn oluna bilərdi. Şirvan bəylərbəyisi Abdullaxanın bina etdirdiyi türbə isə əvvəllər mövcud olmuş məzarın üstündə tikilmişdir. Baba Samit pirinin ətrafında əldə edilmiş arxeoloji materialların müqayisəli analizi də deyilənləri əsaslandırmağa imkan verir. Qara Seyid pirinin yerləşdiyi ərazidə zəngin mədəni təbəqəsi olan ilk orta əsr yaşayış məskəni və qəbiristanlıq mövcud olmuşdur. Abidə Kolanı kəndinin ərazisində yerləşən qədim yaşayış məskəninin 3-4 km cənubunda yerləşir. Qara Seyid kimi tanınan şəxsin adı Zeynalabidindir. Ziyarətgah Kür çayının sahilindən 100 metr məsafədə, meşənin içərisində Seyid Zeynalabidin Seyid Rza oğlunun qəbri üzərində tikilmişdir. Seyidin şəcərəsi belədir: Zeynalabidin+Seyid Rza+Hüseyn+ Həmzə+Tahir+Cəfər+ Əhməd+ Fəxrəddin+ Bağır+Həsən+ İmam Museyi Kazım (ra).

Dissertasiya işinin **III fəsli "Təsərrüfat həyatı"** adlanır. Burada Kür-Araz qovşağı ərazisinin ilk orta əsr abidələrindən əldə olunmuş maddi – mədəniyyət nümunələrinin təsnifatı verilmiş və əhalinin məşğuliyyəti öyrənilmişdir. Üç yarımfəsildən ibarət olan bu fəsildə əkinçilik, maldarlıq, sənətkarlıq kimi sahələr tədqiq edilmişdir.

III fəslin birinci yarımfəsli **"Əkinçilik"** (3.1.) adlanır. Kür-Araz qovşağı ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin elmi təhlili sübut edir ki, onların bir çoxu əkinçilik məhsulları və onlardan hazırlanmış maddi nemətlərin saxlanması üçün nəzərdə tutulmuşdur. Kür-Araz qovşağı ərazisinin ilk orta əsr yaşayış yerlərindən əldə edilmiş dən daşları öz qədimliyi və həcmi etibarı ilə Azərbaycanın digər ərazisində tapılan dən daşları ilə oxşarlıq təşkil edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid əkinçilik alətləri və kömürləşmiş taxıl qalıqları da əldə edilmişdir.

III fəslin ikinci yarımfəsli **"Maldarlıq"** (3.2.) adlanır. Kür-Araz qovşağı ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilən osteoloji qalıqlar da bu ərazidə maldarlığın əsas təsərrüfat sahələrindən biri olduğunu sübut edir. Əldə edilən osteoloji qalıqlar əsasən iri və xırda buynuzlu heyvan sümüklərindən ibarətdir. Belə qalıqlar bütün yaşayış məskənlərindən və ocaq yerlərindən əldə

edilmişdir. İribuynuzlu heyvanlardan əsasən qoşqu qüvvəsi kimi daha çox istifadə olunmuşdur. Yarımköçəri maldarlıqda qoyunçuluğun üstün yer tutması arxeoloji qazıntıların nəticələri ilə təsdiqlənir. Kür-Araz qovşağı ərazisinin təbii şəraiti burada ovçuluq və balıqçılığın da əsas məşğuliyyət sahələrindən biri olmasına imkan vermişdir.

III fəslin üçüncü yarımfəsli **"Sənətkarlıq"** (**3.3.**) adlanır. Arxeoloji tədqiqatlar Kür-Araz qovşağı ərazisinin təsərrüfat həyatında sənətkarlığın xüsusi yer tutduğunu sübut edir. Qazıntıların nəticələrindən məlum olur ki, sənətkarlıq inkişaf etdikcə ayrı-ayrı sənət sahələri daxilində, o, cümlədən dulusçuluqda, şüşə və metal istehsalında ixtisaslaşma getmişdir. Erkən orta əsrlərin son mərhələsində Kür-Araz qovşağı ərazisində daşişləmə, bənnalıq, dülgərlik, toxuculuq kimi sahələr artıq formalaşmış, yeni yaranmış şəhərlərdə sənətkarlar xüsusi qrup təşkil etmişdir. Bu yarımfəsil **"Metalişləmə"** 3.3.1., **"Dulusçuluq"** 3.3.2., **"Şüşə istehsalı"** 3.3.3., **"Digər sənət sahələri və peşə növləri"** 3.3.4. adlı paraqraflardan ibarətdir. İlk orta əsr yaşayış yerləri və qəbir abidələrindən əldə olunmuş materialların öyrənilməsi Kür-Araz qovşağı ərazisində bu dövrdə metal istehsalı və dulusçuluğun mühüm sənət sahələrindən olduğunu söyləməyə əsas verir. Şüşə məmulatı isə əvvəlki maddi - mədəniyyət nümunələri ilə müqayisədə azlıq təşkil edir. Kür-Araz qovşağı ərazisinin ilk orta əsr abidələrindən əldə olunmuş arxeoloji materiallar əsasında daşişləmə, ağacişləmə, sümükişləmə, zərgərlik, toxuculuq kimi sahələr də elmi cəhətdən tədqiq edilmişdir.

Dissertasiya işinin **IV fəsli "İqtisadi və mədəni əlaqələr"** adlanır. Bu fəsil İqtisadi əlaqələr (4.1.) və Mədəni durum (4.2.) adlanan iki yarımfəsildən ibarətdir. Kür-Araz qovşağı ərazisində iqtisadi və mədəni əlaqələrin inkişafında ərazidə sənətkarlığın inkişaf səviyyəsi, onun su və quru yollarınun üzərində yerləşməsi, coğrafi mövqeyi, əsasən düzənlik yerləri əhatə etməsi mühüm rol oynamışdır. Kür-Araz qovşağı ərazisinin bütün ilk orta əsr yaşayış yerlərində, o cümlədən Abdulabad, Çanaq təpə, Qırxçıraq, Kürsəngi də sənətkarlığın yüksək inkişafı, bir neçə karvan yolunun buradan keçməsi, ərazidən gəmiçilik üçün yararlı olan bol sulu çayların axması həm də ticarətin inkişafına güclü təkan vermişdir. Bu işə bölgənin Dərbənd və Ərdəbil şəhərləri arasında yerləşməsi də mühüm təsir göstərmişdir. Ticarət əlaqələrinin öyrənilməsində sikkə qalıqları mühüm rol oynayır. Kür-Araz qovşağı ərazisindən tapılmış sikkələr

numizmat A.A.Quliyev tərəfindən tədqiq edilmişdir. Onların böyük əksəriyyətini Şirvanşahların misdən hazırlanmış sikkələri təşkil edir. Bu da şəhərlərin və ticarətin sürətli inkişafı ilə əlaqədər X əsrdən başlayaraq bütövlükdə Ön Asiyanı əhatə etmiş gümüş böhranı ilə əlaqədardır. Bu dövrdə gümüş pullar mis pullarla əvəz edilsə də bu mahiyyət etibarı ilə siyasi-iqtisadi dirçəliş və ticarətin inkişafı ilə əlaqələndirilməlidir.

Dissertasiya işinin sonunda elmi tədqiqatın mühüm **nəticələri** göstərilmişdir. Kür-Araz qovşağı ərazisinin İlk orta əsr abidələrində aparılan arxeoloji tədqiqat işlərindən belə nəticəyə gəlmək olar ki, ərazi mühüm ticarət və su yollarının kəsişdiyi ərazidə yerləşməklə ilk orta əsrlərdə Azərbaycan xalqının iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Ərazidə baş verən arasıkəsilməz feodal ara müharibələri və yadelli işğalçıların hücumları ümumi inkişafı ləngitsə də feodal istehsal üsulu məhsuldar qüvvələrin inkişafına imkan yaratmışdır. Bu özünü sənətkarlığın və ticarətin inkişafında daha yaxşı biruzə verirdi.

Sasani, Bizans, Ərəb və başqa işğalçıların hücumları işğalçıların Kür-Araz qovşağı ərazisində də umumi inkişafa mənfi təsir göstərmişdir. Eramızın ilk əsrlərindən başlamış VIII əsrə qədərki tarixi mənbələrdə Qafqaz xalqları ilə antik dünya arasında sıx siyasi, iqtisadi və mədəni əlaqələrin mövcud olduğu qeyd olunur. Kür-Araz qovşağı ərazisindəki ilk orta əsrlər abidələrində aparılan arxeoloji tədqiqatların son nəticələri mənbə məlumatlarının doğruluğunu bir daha təsdiq edir. Arxeoloji tədqiqatlar göstərir ki, feodal münasibətlərinin tədricən inkişafı, daxili və xarici ticarətin artması və bir sıra sənət sahələrinin genişlənməsi nəticəsində bu ərazidə yeni yaşayış məskənləri meydana gəlmişdir. Tarixdən məlumdur ki, antik və ilk orta əsrlər dövrü yaşayış məskənləri arasında müəyyən keçid mərhələləri olmuşdur. Feodal yaşayış məskənlərinin bir qismi antik dövr yaşayış məskənlərinin davamı kimi yeni ictimai quruluşun tələbləri əsasında yaranmışdır. Həmin dövrdə təsərrüfat və sənətkarlığın müxtəlif sahələrində olduğu kimi ictimai quruluşda da müəyyən dəyişikliklər olmuşdur ki, bu da Kür-Araz qovşağı ərazisindən əldə edilmiş arxeoloji materiallarda izlənilir.

Aparılan tədqiqatlardan məlum olur ki, Kür-Araz qovşağı ərazisinin ilk orta əsr abidələrində metalişləmə və dulusçuluq digər sənət sahələri ilə müqayisədə müəyyən inkişaf mərhələsi keçmişdir. Bu da materialların müqayisəli təhlilində özünü kəskin surətdə biruzə verir.

Sənətkarlığın və ticarətin inkişafı bölgənin iqtisadi və mədəni həyatına bilavasitə təsir etmiş, bu da öz növbəsində yerli və beynəlxalq ticarətdə ərazinin mühüm rol oynamasına səbəb olmuşdur.

Beləliklə, Kür-Araz qovşağı ərazisinin ilk orta əsr arxeoloji abidələrində aparılan elmi tədqiqat işləri qeyd olunan dövrdə yaşayış yerləri və onların quruluşu, qəbir və memorial abidələr, habelə, əhalinin dünyagörüşü, təsərrüfat həyatı, iqtisadi və mədəni əlaqələrinin öyrənilməsində mühüm nəticələrə gəlməyə imkan vermiş bölgənin Azərbaycan Albaniyası tarixindəki yerinin müəyyənləşdirilməsinə zəmin yaratmışdır.

**Ədəbiyyat siyahısı** rəqəmli kodlar şəklində göstərilmiş, dissertasiyanın mətn hissəsinə əlavə edilmiş **illüstrasiyalarda** isə ərazinin xəritəsi, plan və şəkillər verilmiş, əldə olunmuş maddi mədəniyyət nümunələri tablolarda öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalələrində nəşr edilmişdir:**

1. Qədim Abdulian, Bakı, 2003, 156 s. (müştərək)
2. Abdulian kəndinin təbii-coğrafi şəraiti, "Elmi Axtarışlar" VIII toplu, Bakı "Səda", 2002, s. 21-26 (müştərək)
3. Baba Samit Piri, " Elmi Axtarışlar", XVI toplu, Bakı "Səda", 2005, s. 269-273 (müştərək)
4. Suqovuşan abidələri, pirləri, ziyarətgahları, Bakı, "Araz" nəşriyyatı, 2011, 106 s.
5. "Abdulabadın tarixi- arxeoloji tədqiqi, Bakı, "Araz" nəşriyyatı, 2011, 240 s.
6. Qərib Piri // Tarix və onun Problemləri, Bakı, 2004, s. 226-228 (müştərək)
7. Put təpəsində arxeoloji tapıntılar // 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları, Bakı, 2005, s. 93-94 (müştərək)
8. Salyan və Hacıqabul rayonlarının oxşar abidələri // Tarix və onun problemləri, N 3, Bakı, 2013, s. 272-276
9. Suqovuşanın memorial abidələri // Tarix və onun problemləri, N 4, Bakı, 2013, s. 315-319
10. Qara Seyid Piri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı 2013, №1, s.62-64
11. Ərəbqubalı şəhərgahı // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı, №3, 2013, s. 128-131

12. Абдулианские археологические памятники // «Гилея», Научный выпуск 73(№6), Киев, 2013, с. 94-95
13. Qaramanlı tayfası // Tarix və onun problemləri, N 2, Bakı, 2014, s. 322-328
14. Kür-Araz qovşağı ərazisində metalişləmə sənəti // Qarabağın Arxeoloji İrsi Beynəlxalq Elmi Konfransın Materialları , Bakı “Xəzər Universiteti” nəşriyyatı, 2016, s.112-113

*Х.Х.Шихалиев*

**Раннесредневековые археологические памятники Кура-Аракского бассейна**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, четырех глав, заключения, иллюстраций и списка использованной литературы.

Во введении обосновываются актуальностъ темы, объект исследования, цели и задачи, источниковедческая база, степень изученности, научная новизна, методология, апробация, структура диссертационной работы.

Первая глава «Населённые пункты Кура-Аракского бассейна» делится на три подглавы. В главе исследуются ранне-средневековые поселения  населённых пунктов, строительные остатки.

Во второй главе «Могильные памятники » речь идет о могильных и мемориальных памятниках, представляюших большую ценность с точки зрения изучения локальных особенностей могильных памятников  Албании и похоронных традиций в средние века.

В третьей главе «Хозяйственная жизнь Кура-Аракского басена ». даётся  информация об основных занятиях в ранние средние века: землепашество, скотоводство, ремесла.

Четвёртая глава «Экономическое и культурное  состояние» состоит из двух подглав. Здесъ исследованы состояние экономики и культуры в ранние средние века.

В «Заключении», на основе анализа археологических артефактов III – VIII веков, подведены итоги исследуемых вопросов, научно обоснованы выводы, изложенные в диссертации.

*H.Kh.Shixaliyev*

## Early Medieval archaeological monuments of the territory of Kura-Araxes junction

## SUMMARY

The dissertation work consists of the introduction, for chapters, conclusion, the list of the used scientific literature , the illustrations which have added to the text part.

In the introduction it deals with the topicality of the theme , sources, level of its studying, chronological frame , scientific novelty, the method of research, approbation and structure .

The first chapter is called “The settlements of Kura-Araxes junction territory” and consists of three sub-chapters. It was researched early medieval settlements, their situation and remains in the territory of Kura-Araxes junction.

In the second chapter which called “Cemetery monuments” it was told about grave and memorial monuments. Archaeological excavations which had been done in the early medieval cemeteries of Kura-Araxes junction territory are important for the research of grave types and burial ceremonies of the early medieval period.

Third chapter is called “Agricultural life of Kura-Araxes junction territory”. It was given information about the employment of early medieval people, also, husbandry, cattle-breeding and craftsmanship in this chapter.

Fourth chapter is called “Economical and cultural determination” and consist of two sub-chapters. It was told about economical stableness and cultural determination of early medieval period of Kura-Araxes junction territory in this chapter.

In the conclusion it deals III-VIII centuries monuments on the basis of the material cultural samples of Kura-Araxes junction territory.

Tiraj 100. Format 60x84 $^1/_{16}$

---

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**ХАСРАТ ХАНБАБА оглы ШИХАЛИЕВ**

# РАННЕСРЕДНЕВЕКОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ КУРА-АРАКСКОГО БАССЕЙНА

**5505.02-Археология**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ-2017**